2018-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 927 milyon 993 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,9 faiz artaraq 861 milyon 631 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 92,8 faizini təşkil edir.

2018-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada tikinti sahəsində 13155 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 2,2 faiz artaraq 485,3 manat olmuşdur.